**G.H.MƏMMƏDZADƏ**
*baş müəllim, doktorant*
*e-mail: gunaymemmedzade08@gmail.com*
**:https://orcid.org/0000-0002-8484-1792**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristeti**
(Bakı şəh., İnşatçılar pr., 39)

**Azərbaycan Respublikası Təhsil İnstitutu**
(Bakı şəh., Ayna Sultanova küç., 11)

**10.62021/0026-0028.2025.2.353**

# BULLİNQ VƏ MƏKTƏBDƏN YAYINMA HALLARI: PEDAQOJİ BAXIŞ VƏ HƏLL İMKANLARI

***Xülasə.*** *Məqalədə ümumtəhsil məktəblərində sosial-pedaqoji problemə çevrilmiş bullinq halları tədqiq olunmuşdur. Tədqiqatın məqsədi şagirdlər arasında yayılmış bullinqin mahiyyətini aydınlaşdırmaq və bu kontekstdə onun növləri (sözlü, fiziki, psixoloji, sosial, cinsi, kiberbullinq) və iştirakçıları haqqında məlumat verərək (buller, qurban, şahid) problemin yaranma səbəblərini və aradan qaldırılması yollarını elmi əsaslarla təqdim etməkdir. Məqalədə bullinqin qarşısının alınması üçün bir sıra pedaqoji həll yolları təklif olunmuşdur ki, buraya məktəbdaxili nəzarət mexanizmlərinin gücləndirilməsi, antibullinq proqramlarının tətbiqi, müəllim-valideyn əməkdaşlığının inkişaf etdirilməsi və məktəb psixoloqlarının fəaliyyətinin effektiv şəkildə təşkili daxildir.*

***Açar sözlər:*** *bullinq, buller, qurban, məktəbdən yayınma, ümumtəhsil məktəbləri, pedaqoji həll yolları*

**Giriş.** Məktəb yalnız akademik biliklərin əldə edildiyi yer deyil, eyni zamanda, şagirdlərin sosial bacarıqlarının inkişaf etdiyi və əxlaqi dəyərlərinin formalaşdığı, onların şəxsiyyət kimi yetişdiyi mühüm müəssisədir. Şagirdlərin həyatlarının böyük bir hissəsini burada keçirdiyini nəzərə alsaq, məktəbin onların rifahını təmin etməkdə böyük məsuliyyət daşıdığını görərik. Məktəb şagirdlər üçün rahat və təhlükəsiz məkan olmalıdır. Əks təqdirdə məktəb özünün təlim, tərbiyə və təhsil kimi vəzifələrini həyata keçirə bilməyəcəkdir. Şagirdlərin məktəbdən yayınmasına təsir edən amillər sırasında bullinq halları xüsusilə vurğulanmalıdır. Hər gün milyonlarla şagirdin həyatına təsir edən bullinq halları təkcə uşaqları deyil, hər kəsi narahat etməli olan problem olub, həm uşaqlara, həm də cəmiyyətə uzunmüddətli ziyan vurur. 2019-cu ildə Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı – PISA-nın nəticələrinə əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində 15 yaşlı şagirdlərin 22.7%-i ayda ən azı bir neçə dəfə həmyaşıdları tərəfindən bullinqə məruz qalır, təhqir edilir, 7%-i ayda bir neçə dəfə döyüldüyünü, itələndiyini, əşyalarının götürüldüyünü və ya qəsdən zərər vurulduğunu, 14%-i isə ən azı ayda bir neçə dəfə bullinqin müxtəlif növlərinə məruz qaldığını bildirir [5]. Bullinq haqqında sistematik tədqiqatlar 1970-ci illərdən başlamışdır. Öncələri bullinqə qarşı Skandinaviya ölkələrində başlayan bu maraq, sonradan Yaponiya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Hollandiya, Avstraliya kimi ölkələrdə də yayılmağa başlamışdır. Son illər məktəblərdə baş verən bir sıra neqativ halların əsasında bullinq probleminin durması da bu məsələyə ciddi yanaşılmasını tələb etmiş, dünyanın bir sıra ölkələrində antibullinq proqramlarının hazırlanmasını, problemin pedaqoji, psixoloji və sosioloji aspektlərdən tədqiqini zəruri etmişdir. Bullinq anlayışının elmi ədəbiyyata gəlməsində xüsusi rolu olan Dan Olveusa görə bullinq davranışı, bir və ya bir neçə şəxsin, özlərini müdafiə etməkdə çətinlik çəkən bir insana qarşı qəsdən və təkrarlanan mənfi davranışlar göstərməsidir [7, s.7].

R.Yıldırıma görə isə bullinq eyni yaş və ya yaxın yaşlarda olan şagirdlərin arasında müşahidə olunan mənfi sosial davranış forması olub, buller qurbana nisbətdə fiziki cəhətdən daha güclüdür və davamlı olaraq mənfi davranış göstərməkdədir [10, s.40]. Bullinqin təhsil sisteminə təsirini qiymətləndirərkən onun şagirdlərin sosial və akademik inkişafına mənfi təsirini vurğulamaq vacibdir. Bullinqə məruz qalan şagirdlər dərsə olan marağını itirir, sosial mühitdən uzaqlaşır, psixoloji problemlərlə üzləşir və nəticədə məktəbdən yayınma halları artır [3]. Qurban şagirdlər özlərini məktəbdə təhlükədə hiss etdiklərinə görə, bullerlərin yaratdığı psixoloji, fiziki və sosioloji təzyiqdən xilas olmağın yeganə yolunu məktəbdən uzaqlaşmaqda görürlər [2]. Bu təzahürlərin qarşısını almaq üçün təhsil sistemində bullinqin fəaliyyət mexanizmləri dərinlərdən araşdırılmalı, pedaqoji və psixoloji yanaşmalar tətbiq edilərək, profilaktik tədbirlər görülməlidir.

Bullinq hallarının şagirdlərin psixoloji, fiziki və sosioloji vəziyyətinə necə təsir etdiyini anlamaq üçün onun iştirakçıları və növləri haqqında məlumat əldə etmək vacibdir. Bullinq hallarının üç iştirakçısı vardır ki, bunlar buller (zorakılığı törədən), qurban (zorakılığa məruz qalan) və şahiddir (bullinq hadisəsinə şahid olan). Bullerlər adətən qurbanlardan fiziki, psixoloji, emosional və sosial cəhətdən daha güclüdür. O, qurbana sistematik və qəsdən olaraq fiziki, cinsi, şifahi, emosional təzyiq, hücum tətbiq edən şəxsdir. Onlar qurbandan daha böyük, daha sosial, güclü, özünəinamlı, cəsarətli olur, manipulyasiya hissi güclü, empatiya, mərhəmət hissləri zəif olur, problemləri zorakılıqla həll etməyə üstünlük verirlər.

Qurban buller tərəfindən sistematik şəkildə qorxudulan, təhqir edilən, təcrid edilən, fiziki, psixoloji təzyiqlərə məruz qalan şagirddir [8, s.226]. Qurbanlar adətən sosial bacarıqları zəif olan şagirdlər arasından çıxır. Onlar adətən dostluq əlaqələri qurmaqda çətinlik çəkir və buna görə də yalnız olurlar. Qurbanlar eyni zamanda fiziki cəhətdən digərlərindən fərqli, iradəsiz, özünəinamı olmayan, tez təsir altına düşə bilən şagirdlərdir. Tədqiqatlar göstərir ki, qurbanların özünə hörməti və inamı azdır [4, s.525]. Şahidlər isə bullinq hallarını görən prosesin şahidi olan şəxslərə deyilir. Şahidlər şagirdlər, müəllimlər, məktəbin pedaqoji və texniki heyyətindən istənilən adam və ya adamlar ola bilərlər. Şahidlərin bullinq prosesindəki rolu mühümdür və həlledici xarakter daşıyır. Onlar qurbana dəstək olmaqla və vəziyyəti müvafiq şəxslərə bildirməklə bullinqin qarşısını ala bilərlər. Şahidi olunan bullinq hadisəsinə məhəl qoymamaq, ona dözmək və ya birbaşa və dolayı yolla təşviq etmək bullinqin davam etməsinə və güclənməsinə şərait yaradır və yeni qurbanların hədəfə çevrilməsinə gətirib çıxara bilir.

**Bullinqin bir sıra növləri var:**

**Sözlü bullinq** – təhqir, alçaltma, lağa qoyma, təhdid, ləqəb qoşma və s.;

**Fiziki bullinq** – döymək, vurmaq, badalaq gəlmək və s.;

**Sosial bullinq** – qrupdan təcrid etmə, şayiələr yaymaq və s.;

**Cinsi bullinq** – seksual xarakterli təzyiqlər və zorakılıq və s.;

**Kiberbullinq** – sosial şəbəkələrdə təhqir, ifşaedici materiallar paylaşmaq.

Bullinqin növlərinə məruz qalan şagirdlər özlərini şəxsiyyət kimi formalaşdırmaqda çətinlik çəkir, sosial mühitdən qaçır, psixoloji cəhətdən zəif olurlar. Buller tərəfindən uzun müddət təzyiqə məruz qalan qurbanlarda özünəinamsızlıq, özünə hörmətin aşağılığı, gələcəyə ümidsizlik, çarəsizlik müşahidə olunur [9]. Bullerlərlə mübarizə apara bilmədikləri üçün məktəbə getməkdən ya birbaşa imtina edir, ya da müxtəlif bəhanələrlə yayınmağa çalışırlar.

Məktəb mühitində davamlı olaraq fiziki və psixoloji zorakılığa məruz qalan şagirdlər, təhsil prosesindən uzaqlaşmağa meyilli olurlar. İbtidai sinif şagirdləri, adətən məktəbdən yayınmaq məqsədilə səhhətləri ilə bağlı müxtəlif şikayətlər irəli sürürlər [3]. Bəzi hallarda bu şikayətlər qorxu və stressin təsiri nəticəsində real sağlamlıq problemlərinə çevrilə bilər.

Daha böyük yaş qruplarına aid olan şagirdlər isə dərsə getmək adı ilə evdən çıxaraq, məktəbə getmək əvəzinə vaxtlarının əksər hissəsini küçədə, internet klublarda keçirirlər. Bu cür davranışlar onların qeyri-formal qruplara qoşulması və potensial risk faktorları ilə qarşılaşması ehtimalını artırır. Alternativ çıxış yolu tapa bilməyən, xüsusilə də ictimai şəkildə al-

çaldılan və zorakılığa məruz qalan şagirdlər isə daha ağır psixoloji fəsadlarla üzləşə bilirlər. Adətən kiberbullinqin və cinsi bullinqin qurbanları düşdükləri çətin vəziyyətdən xilas ola bilmədikdə son çıxış yolunu intihar etməkdə görürlər.

**Bullinq şagirdlərin məktəbdən yayınmasına müxtəlif aspektlərdən təsir edə bilər:**

**1. Psixoloji təsirlər:** bullinqə məruz qalan şagirdlərdə depressiya, narahatlıq, özünəinamın azalması və ya tamamilə itməsi, psixoloji travmalar kimi hallar müşahidə olunur.

**2. Fiziki təsirlər:** bullinqə məruz qalan şagirdlərdə gözlə görülən yaralar, izlər, sıyrıq, sınıq olmaqla yanaşı, yuxusuzluq, yorğunluq, baş, qarın ağrısı kimi hallar müşahidə olunur [1, s.8].

**3. Sosial izolyasiya:** sosial bullinqə məruz qalan şagirdin məktəb daxilində hər hansı bir qrupa daxil olmasına icazə verilməməsi, onunla pis rəftar, varlığının nəzərə alınmaması halları. Məktəb həm də şagirdlərin sosiallaşdığı yer olduğu üçün onlar məktəbdəki dostluqlara böyük önəm verirlər. Dostluq münasibətlərinin pozulması, onun məktəbdə qəbul olunmaması şagird üçün böyük travma olub, məktəbə olan marağının itməsinə səbəb olur. Bu zaman məktəb onun üçün cəzbediciliyini itirir və nəticədə məktəbdən yayınma halları baş verir.

**4. Akademik performansın düşməsi:** Bullinqə məruz qalan şagirdlərin özünəinamı itdiyi üçün akademik göstəricilərində zəifləmə müşahidə edilir. Bundan başqa onlar məktəbdə özlərini rahat hiss etmir, təkrarlanan zorakılıq halları onlarda qorxu yaradır və nəticədə şagirdlərin akademik nailiyyətləri zəifləyir.

**Bullinq hallarının aradan qaldırılmasının pedaqoji yolları:**

**Müəllim nəzarəti:** Müəllimlər məktəb mühitində əsas nəzarət mexanizmlərindən biri kimi çıxış edirlər və onların müşahidəsi bullinqin qarşısının alınmasında mühüm rol oynayır [8, s.21]. Bu müşahidə əsasında buller və qurban ola biləcək şagirdlər müəyyənləşdirilir. Daima narahat və qorxu içində olan şagirdin bullinqin qurbanı olub-olmadığı müəyyənləşdirilir, bullerin aqressiyasının səbəbləri dəqiqləşdirilir və müdaxilə strategiyaları tətbiq edilir. Müəllim nəzarəti şagirdlərin təhlükəsizliyini təmin etməklə yanaşı, onların sosial münasibətlərini düzgün istiqamətləndirmək üçün də vacibdir.

**Müəllim nəzarətinin aspektləri: 1)** Sinifdə nəzarətin gücləndirilməsi; 2) Şagirdlər arasında empatiya hissinin yaradılması və artırılması; 3) Müəllim-valideyn əməkdaşlığının gücləndirilməsi.

**Məktəbdə antibullinq proqramlarının tətbiqi:** antibullinq proqramları məktəblərdə bullinqin qarşısını almaq və mübarizə aparmaq məqsədi daşıyan sistematik tədbirlər toplusudur. Bu proqramlar əsasən preventiv və müdaxilə istiqamətli olurlar. Antibullinq proqramlarının bir sıra məqsədləri var ki, bunlara daxildir: 1) Şagird və müəllimləri bullinq problemi ilə bağlı maarifləndirmək; 2) Bullinq hallarını erkən aşkar etmək və qarşısını almaq; 3) Aqressiv davranış nümayiş etdirən şagirdlərin aqressiyalarının səbəbini müəyyənləşdirmək; 4) Məktəb psixoloqlarının və sosial pedaqoqlarının fəaliyyətinin gücləndirilməsi.

**Məktəb psixoloqlarının rolunun gücləndirilməsi:** bullinqin qarşısının alınması və şagirdlərin psixoloji rifahının təmin edilməsi baxımından sosial mühit yaratmağa, şagirdlərin emosional və akademik inkişafına müsbət təsir göstərməyə imkan verir. Məktəb psixoloqunun işinin xüsusiyyətləri: 1) Məktəbdə bullinqlə bağlı profilaktik tədbirlər keçirmək; 2) Müəllim, şagird, valideyn və məktəbin texniki işçilərinə bullinqlə bağlı seminarlar vermək; 3) Psixoloji dəstək sisteminin məktəb mühitinə inteqrasiyası; 4) Bullinqə qarşı erkən müdaxilə və reabilitasiya proqramları hazırlamaq və həyata keçirmək; 5) Məktəb daxilində psixoloji təhlükəsizlik mühitinin yaradılması.

Nəticə olaraq qeyd edilməlidir ki, bullinqin qarşısının alınması və məktəbdən yayınma hallarının minimuma endirilməsi üçün sistemli və pedaqoji yanaşmalar tətbiq edilməlidir. Bu kontekstdə, məktəb rəhbərliyi, müəllimlər və psixoloqlar arasında əməkdaşlıq gücləndirilməli, preventiv tədbirlər görülməlidir. Həmçinin valideynlərin maarifləndirilməsi və şagirdlər arasında empatiyanın təşviq olunması bullinqin təsirlərini azaltmaq üçün mühüm addımlardır.

***İşin elmi nəticəsi.*** Tədqiqata əsasən müəyyən olunmuşdur ki, bullinq halları şagirdlərin psixososial rifahına mənfi göstərdiyi kimi, onların dərsə davamiyyətinə də təsir edir. Bullinq nəticəsində məktəbdən yayınma hallarının qarşısının alınması üçün bullinqin vaxtında aşkarlanması, məktəbdaxili müdaxilə proqramları hazırlanmalı, müəllimlərin bullinqi tanıma və müdaxilə bacarıqlarının artırılması və valideynlərin məktəb-ailə əməkdaşlığının gücləndirilməsi lazımdır.

***İşin elmi yeniliyi.*** Tədqiqatda bullinq və məktəbdən yayınma hallarının bir-birinə təsiri elmi əsaslarla sübut olunmuş, qarşısının alınması üçün müəllimlərin, məktəb psixoloqu və valideyn koordinasiyalı fəaliyyəti əsasında modellər təqdim olunmuşdur.

***İşin tətbiqi əhəmiyyəti.*** Tədqiqatın nəticələri əsasında təhsil müəssisələrində bullinqlə mübarizə və məktəbdən yayınma hallarının qarşısının alınması üzrə proqramların hazırlanması və tətbiqində, həmçinin pedaqoq, psixoloq və valideynlər üçün maarifləndirici material kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Çınkır, S. Okullarda zorbalık: Türleri, etkileri ve önleme stratejileri. I. Şiddet və Okul Sempozyumu. – İstanbul: MEB və UNICEF, – 2006. – 15 s.
2. Hamurcu, H. Zorbalığın toplumsal etkileri və mübarizə yolları / H.Hamurcu, – Ankara: Eğitim Yayınevi, – 2020. – 128 s.
3. Kapcı, E.G. İlköğretim öğrencilerinin zorbalığa maruz kalma türünün və sıklığının depresyon, kaygı və benlik saygısıyla ilişkisi // –Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi. – 2004. –210 s.
4. Lereya, S.T., Copeland, W.E., Costello, E.J., Wolke, D. Adult mental health consequences of peer bullying and maltreatment in childhood: Two cohorts in two countries.The Lancet Psychiatry. –2015. Vol. 2(6). – p. 524–531.
5. OECD. Chapter 2. Bullying. In PISA 2018 Results (Volume III). 2018.
6. Olweus, D. Bullying at school: What we know and what we can do. 24th edition. / D.Olweus, – Oxford: Blackwell Publishing Ltd, –2005. – p.140.
7. Olweus, D. Bullying among children and young people: Information and guidance for parents / D.Olweus, C.Solberg, –2018. – p. 34.
8. Piazza, T., Srabstein, J. Public health, safety and educational risks associated with bullying behaviors in American adolescents. International Journal of Adolescent Medicine and Health. – 2008. Vol. 20(2). – p. 223-233.
9. Srabstein, J., Piazza, T. Bullying as a public health problem among adolescents: Risk factors and prevention strategies. International Adolescent Health Review. –2008. Vol. 20(2). –p. 215-222.
10. Yıldırım, R. Akran zorbalığı // Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi. –2012. – c. 10(2). – s. 39-51.

**G.H.Mammadzada**

**Bullying and Truancy: Pedagogical Perspectives and Solutions**

***Summary***

The article studies cases of bullying, which has become a socio-pedagogical problem in secondary schools. The aim of the study is to clarify the nature of bullying among students and, in this context, to provide information about its types (verbal, physical, psychological, social, sexual, cyberbullying) and participants (bullies, victims, witnesses), and to present the causes of the problem and ways to eliminate it on a scientific basis. The article proposes a number of pedagogical solutions to prevent bullying, including strengthening internal school control mechanisms, implementing anti-bullying programs, developing teacher-parent cooperation and effectively organizing the activities of school psychologists.

***Key words:*** *bullying, bully, victim, truancy, comprehensive schools, pedagogical solutions*

**Г.Х.Мамедзаде**

**Буллинг и отстранение от учёбы: педагогические перспективы и решения**

***Резюме***

В статье рассматриваются случаи травли, ставшие социально-педагогической проблемой в средних школах. Целью исследования является выяснение сущности травли среди школьников и в этом контексте предоставление информации о ее видах (вербальная, физическая, психологическая, социальная, сексуальная, кибербуллинг) и участниках (буллинг, жертва, свидетель), а также представление причин возникновения проблемы и путей ее устранения на научной основе. В статье предлагается ряд педагогических решений по профилактике буллинга, в том числе усиление механизмов внутришкольного контроля, реализация программ по борьбе с буллингом, развитие сотрудничества учителей и родителей, эффективная организация деятельности школьных психологов.

***Ключевые слова:*** *травля, хулиган, жертва, прогулы, общеобразовательные школы, педагогические решения*

*Rəyçilər: ped e.d., prof. İ.H.Cəbrayılov,*
*ped.ü.f.d. İ.O.Məmmədova*

*Redaksiyaya daxil olub: 15.05.2025*